**UDC:** 070,49
**LBC:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 e)64
**MJ №** 477
10.33864/2617-751X.2026.v9.i2.344-357

# THE NEW MIDDLE EAST CODE: THE IMPACT OF NORTHERN IRAQ ON POLITICAL RELATIONS WITH THE UNITED STATES AND TURKEY

**Aytan Karimli***

**Abstract.** Relations with the United States constitute one of the principal pillars of Turkey’s foreign policy. The political and military guarantees provided by the U.S. remain particularly significant for Turkey’s security architecture, especially within the framework of NATO membership and regional risk management. In the evolving international system, Turkey seeks to position itself as a more active and multidimensional global actor. Regional mediation initiatives, multi-vector diplomacy, and the growing emphasis on defense industry autonomy form integral components of this strategic transformation. However, this shift inevitably influences both the nature and the priorities of Turkey-U.S. relations. This study aims to analyze the transformations occurring in the Middle East policies of the United States and Turkey, particularly in the context of Northern Iraq, and to assess their potential consequences. The research examines the U.S. political strategy toward Northern Iraq and evaluates its implications for Turkey’s regional interests. Furthermore, the study identifies emerging directions in strengthening soft power instruments within U.S. regional engagement, particularly under the framework of the “new beginning” discourse. Iraq’s multi-ethnic and multi-sectarian social structure has significantly shaped both its domestic and foreign policy orientations. The fragile ethnic and sectarian balance in Northern Iraq directly affects state governance mechanisms, the formation of political institutions, and the internal political dynamics of neighboring countries. In this regard, the state-building initiatives undertaken by Kurdish political actors in Northern Iraq hold particular importance from both U.S. and Turkish perspectives, especially in terms of domestic security and political stability. The article approaches this issue not merely as a matter of border security, but as a broader strategic question linked to regional power balances and national identity politics.

**Keywords:** United States, Turkey, Iraq, Northern Iraq, strategic partnership, regional security, soft power.

---

* Doctoral student at the Department of Modern and Contemporary History of Europe and America, Baku State University; Baku, Azerbaijan
E-mail: aytenkerimli92@gmail.com
https://orcid.org/0009-0005-3757-6198

**To cite this article:** Karimli, A. [2026]. THE NEW MIDDLE EAST CODE: THE IMPACT OF NORTHERN IRAQ ON POLITICAL RELATIONS WITH THE UNITED STATES AND TURKEY. *“Metafizika” journal, 9*(2), pp.344-357.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i2.344-357
***Article history:***
**Received**: 23.12.2025 **Revised**: 12.01.2026 **Accepted**: 02.02.2026 **Published**: 15.06.2026

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 070,49
**ББК:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 е)64
**MJ №** 477
10.33864/2617-751X.2026.v9.i2.344-357

# НОВЫЙ БЛИЖНЕВОСТОЧНЫЙ КОДЕКС: ВЛИЯНИЕ СЕВЕРНОГО ИРАКА НА ПОЛИТИЧЕСКИЕ ОТНОШЕНИЯ С СОЕДИНЕННЫМИ ШТАТАМИ И ТУРЦИЕЙ

**Айтен Керимли***

**Абстракт.** Отношения с Соединёнными Штатами Америки представляют собой один из ключевых столпов внешней политики Турции. Политические и военные гарантии, предоставляемые США, сохраняют особую значимость для архитектуры безопасности Турции, прежде всего в контексте её членства в НАТО и управления региональными рисками. В условиях трансформирующейся международной системы Турция стремится позиционировать себя в качестве более активного и многомерного глобального актора. Региональные посреднические инициативы, многовекторная дипломатия и усиливающийся акцент на автономии оборонно-промышленного комплекса являются неотъемлемыми элементами данной стратегической трансформации. Вместе с тем указанные изменения неизбежно оказывают влияние как на характер, так и на приоритеты турецко-американских отношений. Цель настоящего исследования заключается в анализе трансформаций ближневосточной политики Соединённых Штатов и Турции, особенно в контексте Северного Ирака, а также в оценке их возможных последствий. В работе рассматривается политическая стратегия США в отношении Северного Ирака и анализируется её влияние на региональные интересы Турции. Кроме того, выявляются новые направления укрепления инструментов «мягкой силы» в рамках регионального взаимодействия США, в частности в контексте дискурса «нового начала». Многоэтническая и многоконфессиональная социальная структура Ирака оказывает существенное воздействие как на его внутреннюю, так и на внешнюю политику. Хрупкий этнический и конфессиональный баланс в Северном Ираке напрямую влияет на механизмы государственного управления, процесс формирования политических институтов, а также на внутриполитическую динамику соседних государств. В данном контексте инициативы по государственному строительству, реализуемые курдскими политическими акторами в Северном Ираке, приобретают особую значимость как с точки зрения США, так и Турции, прежде всего в сфере внутренней безопасности и политической стабильности. В статье данная проблематика рассматривается не только как вопрос обеспечения приграничной безопасности, но и как более широкий стратегический вызов, связанный с региональным балансом сил и политикой национальной идентичности.

**Ключевые слова:** США, Турция, Ирак, Северный Ирак, стратегическое партнёрство, региональная безопасность, мягкая сила

* Докторант кафедры новой и новейшей истории стран Европы и Америки Бакинский Государственный Университет; Баку, Азербайджан
E-mail: aytenkerimli92@gmail.com
https://orcid.org/0009-0005-3757-6198

**Цитировать статью:** Керимли, А. [2026]. НОВЫЙ БЛИЖНЕВОСТОЧНЫЙ КОДЕКС: ВЛИЯНИЕ СЕВЕРНОГО ИРАКА НА ПОЛИТИЧЕСКИЕ ОТНОШЕНИЯ С СОЕДИНЕННЫМИ ШТАТАМИ И ТУРЦИЕЙ. *Журнал «Metafizika»*, *9*(2), с.344-357.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i2.344-357
***История статьи:***
**Поступила**: 23.12.2025 **Переработана**: 12.01.2026 **Принята**: 02.02.2026 **Опубликована**: 15.06.2026

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

*"Metafizika" Journal* — ***AcademyGate Publishing***
***Vol 9, issue 2, serial 38, 2026. pp.344-357*** — ***p-ISSN 2616-6879; e-ISSN 2617-751X***
**UOT:** 070,49
**KBT:** 63.3(2)6-6
**MJ №** 477
10.33864/2617-751X.2026.v9.i2.344-357

# YENİ YAXIN ŞƏRQİN ŞİFRƏSİ: ŞİMALİ İRAQIN ABŞ VƏ TÜRKİYƏ İLƏ SİYASİ MÜNASİBƏTLƏRƏ TƏSİRİ

**Aytən Kərimli***

**Abstrakt.** ABŞ ilə münasibətlər Türkiyənin xarici siyasətinin ən mühüm istiqamətlərindən birini təşkil edir. Türkiyənin təhlükəsizlik arxitekturası, xüsusilə NATO çərçivəsindəki mövqeyi və regional risklərin idarə olunması baxımından ABŞ tərəfindən təmin edilən siyasi və hərbi zəmanətlər xüsusi əhəmiyyət kəsb edir. Belə ki, yeni beynəlxalq sistemdə Türkiyə daha aktiv və çoxşaxəli qlobal aktor kimi çıxış etməyə çalışır. Regional vasitəçilik təşəbbüsləri, çoxvektorlu diplomatiya və müdafiə sənayesində artan müstəqillik meyli bu prosesin tərkib hissəsidir. Lakin bu transformasiya qaçılmaz olaraq ABŞ ilə münasibətlərin xarakterinə və prioritetlərinə təsir göstərir. Bu tədqiqat ABŞ və Türkiyənin Yaxın Şərq siyasətində, xüsusilə də Şimali İraq kontekstində baş verən transformasiyaları təhlil etməyi və onların mümkün nəticələrini proqnozlaşdırmağı qarşıya məqsəd qoyur. Araşdırmada həmçinin ABŞ-ın İraqın şimalına yönəlik siyasi strategiyasını və bu strategiyanın Türkiyənin regional maraqlarına təsirini nəzərə alaraq tədqiq olunmuşdur. Təqdiqat işində "yeni başlanğıc" diskursu konteksində ABŞ-ın regionla münasibətlərində yumşaq güc elementlərinin artırılmasına istiqamətləri müəyyən edilmişdir. Bununla yanaşı İraqın çoxmillətli və məzhəb müxtəlifliyə əsaslanan sosial strukturu onun həm daxili, həm də xarici siyasət kursuna əhəmiyyətli təsir göstərilmiş, ölkənin şimalında etnik və məzhəbi balansın həssas xarakteri dövlət idarəçiliyi mexanizmlərinə, siyasi institutların formalaşmasına və qonşu ölkələrin daxili siyasi dinamikalarına birbaşa təsirləri müəyyən edilmişdir. Bu kontekstdə, ABŞ və Türkiyə baxımından kürd siyasi aktorlarının Şimali İraqda dövlət quruculuğu istiqamətində atdığı addımlar daxili siyasi və təhlükəsizlik müstəvisində xüsusi əhəmiyyət kəsb etməkdədir. Məqalədə bu problem yalnız sərhədyanı təhlükəsizlik problemi deyil, həm də regional güc balansı və milli kimlik siyasəti ilə bağlı strateji məsələ kimi araşdırılmaqdadır.

**Açar sözlər:** ABŞ, Türkiyə, İraq, strateji tərəfdaşlıq, regional təhlükəsizlik, yumşaq güc

---

* Bakı Dövlət Universiteti, Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının doktorantı; Bakı, Azərbaycan
E-mail: aytenkerimli92@gmail.com
https://orcid.org/0009-0005-3757-6198

**Məqaləyə istinad:** Kərimli, A. [2026]. YENİ YAXIN ŞƏRQİN ŞİFRƏSİ: ŞİMALİ İRAQIN ABŞ VƏ TÜRKİYƏ İLƏ SİYASİ MÜNASİBƏTLƏRƏ TƏSİRİ. *"Metafizika" jurnalı, 9*(2), səh.344-357.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i2.344-357
**Məqalənin tarixçəsi:**
**Daxil olub**: 23.12.2025 **Yenidən baxılıb**: 12.01.2026 **Təsdiqlənib**: 02.02.2026 **Dərc olunub**: 15.06.2026

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# 1.Giriş

"Şimali İraq" termini Türkiyədə şüurlu şəkildə müəyyən edilmiş bir məna çərçivəsində istifadə olunur. Türkiyə, xüsusilə İkinci Körfəz müharibəsindən sonrakı dövrdə millət-dövlət strukturunu, unitar dövlət anlayışını və milli icma prinsipini əsas götürdüyündən, "Şimali İraq" ifadəsi ayrıca bir hüquqi-siyasi qurumu ifadə etmək məqsədilə işlədilməyə başlanmışdır. Bu kontekstdə ABŞ-ın yeni Yaxın Şərq xəritəsi İraqı vahid dövlət kimi faktiki olaraq aradan qaldırdığı üçün, ilkin mərhələdə Şimali İraqın formalaşdırılması, sonrakı mərhələdə isə "İraq" anlayışına istinad edilmədən Türkiyə, Suriya və İrandan ərazi əldə etməyə yönəlmiş ekspansionist və hərbi xarakterli bir kürd dövlətinə çevrilməsi nəzərdə tutulur. Bu çərçivədə əvvəlcə "Şimali İraq" anlayışının formalaşmasının son mərhələsi araşdırılacaq, daha sonra isə Şimali İraq modelinin bütün Yaxın Şərqə necə tətbiq edildiyi təhlil olunacaq.

Şimali İraqda 1980-ci ildə İraq-İran müharibəsinin başlamasından etibarən ciddi bir güc boşluğu yaranmışdır. Bu dövrdə Tələbani və Bərzani İraqa qarşı İran tərəfindən dəstəklənmiş, Səddam Hüseyn isə müharibə şəraiti səbəbindən ölkənin şimalına tam nəzarət edə bilməmişdir. Səddam Hüseyn yalnız 1988–1991-ci illər arasında, təxminən üç il müddətində bölgəyə nəzarəti bərpa edə bilmişdir.

1991-ci ildə Birinci Körfəz müharibəsindən sonra Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 36-cı paraleldən şimalda yerləşən əraziləri İraqın nəzarətindən çıxaran qətnaməsi və bu bölgənin Türkiyənin İncirlik Hava Bazasında yerləşən "Çəkic Əməliyyatı" Qüvvələri tərəfindən qorunması nəticəsində, Şimali İraqda kürd tayfalarının mərkəzi İraq hökumətinin nəzarətindən kənarda qaldığı və kürd etnik mənsubiyyətinə əsaslanan regional dominantlığın formalaşdığı bir vəziyyət meydana çıxmışdır. Burada "vəziyyət" anlayışından istifadə olunmasının səbəbi ondan ibarətdir ki, nə beynəlxalq hüquq baxımından tanınmış bir dövlət, nə də rəsmi bir inzibati bölgə yaradılmışdır. Beynəlxalq hüququn dəqiq status müəyyən edə bilmədiyi bu quruluş əslində 1991-ci ildə Türkiyənin öz tələbi ilə, kürdlərin Şimali İraqdan Türkiyəyə kütləvi köçünün qarşısını almaq məqsədilə "Çəkic Əməliyyatı" çərçivəsində formalaşdırılmışdır. Bu şəraitdə PKK bölgədə yaranmış hakimiyyət boşluğundan faydalanaraq genişmiqyaslı fəaliyyət imkanları əldə etmişdir. 1992-ci ildə isə kürd parlamenti tərəfindən Şimali İraqda müvəqqəti kürd administrasiyası yaradılmışdır. 2003-cü ildə İkinci Körfəz müharibəsindən sonra Tələbani və Bərzani yalnız Şimali İraqda deyil, bütövlükdə İraq siyasətində yeni və təsirli siyasi aktorlara çevrilməyə başlamışlar.

2004-cü ilin iyun ayında BMT Təhlükəsizlik Şurasının 1546 saylı qətnaməsi ilə 30 iyun 2004-cü ildən sonrakı dövr üçün müvəqqəti İraq hökumətinin formalaşdırılması və ümumi seçkilərlə bağlı qərarlar qəbul edilərkən, kürdlər

İraqdan ayrılmaq imkanlarının mövcud olduğunu bəyan etmişlər. Bunun əsas səbəbi qətnamədə şiələrin üstünlük təşkil etdiyi İraqda 8 mart 2004-cü il tarixli inzibati qərarlarda muxtariyyət məsələsinə yer verilməməsi idi. Beləliklə, İraq kürdlərinin ayrılma tələbi ilk dəfə rəsmi bir çıxışda açıq və təhdidedici tonla ifadə olunmuşdur.

Həmin dövrdə İraqın baş naziri Ələvi, milis qruplarına məxsus bütün silahların tərksilah ediləcəyini, lakin İraq kürdlərinə məxsus silahlı qüvvə olan Peşmərgənin silahlarının müsadirə olunmayacağını açıqlamışdır. Peşmərgələrin sayı təxminən 75 min nəfər olaraq göstərilirdi. Digər tərəfdən, müvəqqəti İraq Konstitusiyasında İraq federal və plüralist dövlət kimi təqdim edilmişdir. İraq 1932-ci ildə müstəqilliyini elan etsə də, müvəqqəti konstitusiyada əsas etnik qruplar kimi ərəblər və kürdlərlə yanaşı, türkmənlər də azlıq statusunda qeyd olunmuşdur.

**2."Şimali İraqlaşma"ya doğru əhəmiyyətli bir addım: 30 yanvar 2005-ci il tarixli ümumi seçkilər**

30 yanvar 2005-ci ildə İraqda keçirilən ümumi seçkilər təkcə bütün İraqı əhatə edən bir siyasi proses kimi deyil, eyni zamanda Şimali İraqla bağlı de-fakto referenduma çevrilməyə çalışılmışdır. 2004-cü ilin iyun ayında keçirilən G-8 Zirvə görüşündən sonra İstanbulda təşkil olunan NATO Zirvəsində çərçivəsi aydınlaşdırılan və daha sonra Genişləndirilmiş Yaxın Şərq və Şimali Afrika Layihəsi (GOKAP) adlandırılan Böyük Orta Şərq Layihəsinin mahiyyəti bu mərhələdə daha açıq şəkildə ortaya çıxmışdır. Bu kontekstdə İraq GOKAP üçün model ölkə kimi təqdim olunur. Layihə çərçivəsində ölkədə sünni kürd, sünni ərəb və şiə ərəb bölgələrinin yaradılması yolu ilə milli dövlət məntiqindən uzaqlaşaraq, beynəlxalq münasibətlər qurmaq qabiliyyəti zəif olan və qlobal güclərdən daha çox asılılıq göstərən alt kimliklərə əsaslanan strukturlar formalaşdırılmağa cəhd edilir. 30 yanvar 2005-ci il seçkiləri vasitəsilə İraqda, Osmanlı İmperiyasının Birinci Məşrutiyyət dövründəki Deputatlar Məclisini xatırladan, etnik əsaslı bir idarəetmə modelinin qurulmasına yönəlmiş bir proses müşahidə olunmuşdur. Etnik mənsubiyyət və alt kimliklər üzərində qurulan bir parlament sistemində vahid bir millətin formalaşması və bu millət üçün davamlı sosioloji təməlin yaradılması mümkün görünmür. Osmanlı İmperiyasının tarixi təcrübəsi və nəticə etibarilə süqutu bu baxımdan mühüm bir nümunə təşkil edir. GOKAP (İraq Müvəqqəti Administrasiyası) çərçivəsində demokratiyanın gətirilməsi və qadın hüquqlarının yayılması ali və müqəddəs məqsədlər kimi təqdim edilsə də, hərbi işğal, işgəncə və zorakılıq hallarının mövcudluğu demokratiyanın xarici müdaxilə yolu ilə gətirilməsi iddiasını tragikomik bir vəziyyətə salmışdır. Hətta bu mühitdə İraqlı anaların uşaqlarını qorxutmaq üçün “yaramaz davranmayın, yoxsa demokratiya gələcək” ifadəsindən istifadə etməsi, İraq və

ümumilikdə Yaxın Şərqdə demokratiya anlayışının necə qavranıldığına dair diqqətçəkən və düşündürücü bir nümunə kimi qiymətləndirilə bilər.

Demokratik seçkilərin ilkin şərtlərinə seçici siyahılarının əvvəlcədən elan edilməsi, seçki məntəqələrinin və seçki komissiyası üzvlərinin seçkidən əvvəl ağlabatan müddət ərzində müəyyənləşdirilməsi, gizli səsvermənin təmin edilməsi, səslərin isə açıq şəkildə sayılması, eləcə də seçki kampaniyalarının bərabər şərtlər altında aparılması daxildir. İraqda keçirilən seçkilərdə bütün ölkə vahid seçki dairəsi kimi qəbul edilmiş, eyni zamanda əyalət şuraları üçün də səsvermə təşkil olunmuşdur. Kərkük nümunəsində görüldüyü kimi, bəzi istisnalar xaricində seçici qeydiyyatı müddətləri uzadılmışdır.

1991–2003-cü illər arasında təxminən 100 min kürdün şəhəri tərk etməyə məcbur edildiyi iddia edilsə də, Kərkükdə 300 mindən artıq kürdün seçici kimi qeydiyyatdan keçdiyi bildirilir. Bu səbəbdən müzakirələrin mərkəzində seçki nəticələrindən daha çox, Kərkükün İraqın federal quruluşu çərçivəsində kürd bölgəsinə daxil edilib-edilməyəcəyi məsələsi dayanır. 2004-cü ilin dekabrında BMT Təhlükəsizlik Şurasına 1,7 milyon kürd tərəfindən imzalanmış müstəqillik tələbi ilə bağlı ərizənin təqdim edilməsindən sonra, 30 yanvar 2005-ci ildə Şimali İraqda əlavə seçki məntəqələrinin yaradılması ilə qeyri-rəsmi müstəqillik referendumu keçirilmişdir. Seçki məntəqələrinin və seçki rəsmilərinin əvvəlcədən məlum olmadığı bu qondarma seçki, gələcəkdə müstəqillik tələblərinin daha açıq şəkildə gündəmə gətiriləcəyini göstərmişdir. Digər tərəfdən, əhali üstünlüyünə arxalanan şiələr, şiələrin dominant olduğu bir İraq modeli üzərində hesablamalar aparmış və ABŞ qarşısında taktiki olaraq səssiz mövqe tutmuşlar. Lakin bu yanaşma, dolayı yolla İraqın daha da parçalanmasına və məzhəb əsaslı bölünmələrin dərinləşməsinə zəmin yaratmışdır. İraqın qurulmasından bəri hakim siyasi elita mövqeyində olan sünni ərəblər isə seçkiləri əhəmiyyətli dərəcədə boykot etmiş və yeni siyasi prosesdən kənarda qalmışlar. Halbuki, işğala qarşı müqavimətdə ən fəal və görünən qruplardan biri məhz sünni ərəb elementləri olmuşdur.

ABŞ-ın İraqdakı qeyri-rəsmi dövlət siyasəti mərkəzi hökumətin səlahiyyətlərini zəiflədən və qanlı bir vətəndaş müharibəsi əvəzinə nəzarət olunan parçalanma ssenarisini üstün tutan fərziyyələrə əsaslanır. Bu yanaşma üç əsas element üzərində qurulmuşdur. Ukraynada axtarılan yüksək səviyyəli seçki təhlükəsizliyi İraqda tələb olunmur; əksinə, "heç nədən yaxşıdır" yanaşması qlobal ictimaiyyətə təqdim edilir. ABŞ maraqları çərçivəsində qloballaşma hər sahədə təşviq edilsə də, demokratik baxımdan vahid "qlobal standart"ın yaradılmasına ehtiyac duyulmur [Tansi, 2005: s.12-13].

İkinci Körfəz müharibəsindən əvvəl Türkiyə mediasında yer alan Stanford Planında da əks olunduğu kimi, uzunmüddətli perspektivdə ABŞ–İsrail müttəfiqi olan bir kürd dövlətinin yaradılması, potensial olaraq İordaniya ilə federasiya qura bilən sünni ərəb bölgəsinin formalaşdırılması, şiə bölgəsinin

isə İranın təsiri altında qalmaqla yanaşı, İran üzərində təzyiq vasitəsinə və İsrailin Şimali İraqda yerləşdirilməsini asanlaşdıran bir faktora çevrilməsi nəzərdə tutulurdu. Bu baxımdan, İraq seçkiləri potensial bölünmələri, kürd bölgəsinin müstəqillik yolunda legitimləşdirilməsini və türkmən əhalisinin siyasi baxımdan təcrid olunmasını təmin edən bir vasitəyə çevrilmişdir.

**3.Şimali İraqı Kürdüstana Çevirən Sözdə Hüquqi Sənəd: İraq Konstitusiyası**

İraq Konstitusiyasının təhlili göstərir ki, burada klassik millət-dövlət strukturu əvəzinə ərazi, inanc, etnik mənsubiyyət və məzhəb kimi meyarlar əsasında formalaşan alt kimliklər ön plana çıxarılır və bu kimliklər siyasi subyektlər kimi tanınır. Başqa sözlə, Kamalist model vətəndaşlıq əsasında ölkəyə bağlı olan hər kəsi "türk" kimliyi altında birləşdirir, alt kimliklərə əsaslanan kollektiv hüquqları isə tanımır. Halbuki İraq nümunəsində Türkiyə modelindən tamamilə fərqli olaraq alt kimliklərin siyasi varlıq kimi qəbul edildiyi və hətta onlara müəyyən dövlət səlahiyyətlərinin verildiyi bir yanaşma ilə qarşılaşırıq. Diqqətçəkən məqamlardan biri də Avropa Birliyinin 6 oktyabr 2004-cü il tarixli Türkiyə üzrə Tərəqqi Hesabatıdır. Həmin hesabatın 48-ci səhifəsinin ikinci abzasında Lozanna Müqaviləsinə istinad edilərək qeyd olunur ki, bu müqavilə çərçivəsində erməni, yunan və yəhudi vətəndaşlara tanınan azlıq hüquqları kürdlər də daxil olmaqla digər azlıqlara da şamil edilir. Bu yanaşmanın yayılması xüsusilə vurğulanır. Eyni hesabatın 44-cü səhifəsinin ikinci abzasından sonuncu abzasına qədər isə Ələvi vətəndaşlar "sünni olmayan müsəlman azlığı" kimi təqdim olunur [Regular Report 2004: s.44-48].

Başqa sözlə, Aİ Türkiyə modelini "İraqlaşdırmağa", yeni azlıq kateqoriyaları formalaşdırmağa və Brüssel vasitəsilə Türkiyə üçün İraq modelini simulyasiya etməyə çalışır. İraq Konstitusiyasının preambulasında sünni, şiə, ərəb, kürd və türkmən elementlərinə istinad edilir və bu qrupların keçmişdə məruz qaldıqları əzablar vurğulanır. Lakin preambulada yer alan "türkmən" ifadəsi yanıltıcı olmamalıdır; çünki konstitusiyanın maddələri təsdiqlənərkən türkmənlər fundamental siyasi komponentlər arasında yer almamışdır. Konstitusiya eyni zamanda preambulada məzhəbçiliyə, irqi ayrı-seçkiliyə, regionçuluğa, diskriminasiyaya və təcrid siyasətlərinə qarşı olduğunu bəyan edir. Bununla yanaşı, növbəti abzasda terrorizmin və təkfir anlayışının (bir şəxsi və ya qrupu kafir elan etmə) ölkənin birlik və bütövlüyünü poza bilməyəcəyi xüsusi olaraq qeyd edilir [Iraqi Constitution, 2005].

Konstitusiyanın 1-ci maddəsində İraq Respublikasının müstəqil, milli suverenliyə malik, demokratik, federal və təmsilçi respublika olduğu qeyd edilir; "təmsilçi" ifadəsinin yanında mötərizə içində "parlamentar" anlayışı əlavə olunur. Burada əsas diqqət çəkən məqam federalizm anlayışıdır. Necə ki, Britaniya İmperiyası Birinci Dünya Müharibəsindən sonra müxtəlif

regionlarda monarxiyalar formalaşdırmaqla öz siyasi mədəniyyətini yaymağa çalışmışdısa, ABŞ da federal sistemlər vasitəsilə öz siyasi modelini ixrac etməyə cəhd göstərir. Bununla belə, vurğulamaq lazımdır ki, ABŞ-da federal sistem güclü prezidentlik modeli ilə birlikdə fəaliyyət göstərir və bu iki mexanizm bir-birini tarazlaşdırır. Federalizm çərçivəsində paylanan səlahiyyətlər əslində güclü mərkəzi institutlar tərəfindən yenidən mərkəzləşdirilir; Ağ Ev, Pentaqon və Federal Ehtiyat Sistemi bu mərkəzləşməni siyasi, hərbi və maliyyə baxımından təmin edir.

Parlament sistemi anlayışı formal baxımdan Türkiyə modelini xatırlatsa da, onun federal struktur daxilində səmərəli şəkildə işləməsi problematik görünür. Parlamentar sistem daha çox Türkiyə kimi unitar dövlət modellərində funksional ola bilir. Konstitusiyanın 2-ci maddəsi İslamın dövlətin rəsmi dini olduğunu və qanunvericiliyin əsas mənbələrindən biri sayıldığını bəyan etməklə başlayır. Ardınca, birinci maddənin (a), (b) və (c) bəndlərində heç bir qanunun İslamın əsas prinsiplərinə, demokratiya normalarına və fundamental hüquq və azadlıqlara zidd ola bilməyəcəyi vurğulanır. Bu yanaşma bir tərəfdən şəriət hüququna, digər tərəfdən isə demokratiya anlayışına paralel istinad edir. Türkiyədə aparılan müzakirələr fonunda nəzərə alınsa, dünyəvilikdən kənar bir demokratiya modelinin mövcudluğu ciddi şəkildə mübahisəlidir. “İslam demokratiyası” anlayışı istifadə edilsə belə, bu model ən yaxşı halda “mülayim İslam” çərçivəsində qiymətləndirilə bilər.

İraq Konstitusiyasının 3-cü maddəsində ölkə çoxmillətli, çoxdinli və çoxməzhəbli bir dövlət kimi təqdim olunur. Problemin özü bu müxtəlifliyin ifadəsində deyil, alt kimliklərin milli kimliyin yerini tutacaq şəkildə institutlaşdırılmasındadır. Eyni maddədə İraqın İslam dünyasının bir hissəsi olduğu və İraq əhalisinin ərəb xalqı vasitəsilə ərəb millətinə mənsub olduğu qeyd edilir. Burada istifadə olunan “millət” anlayışı Kamalist mənada sosioloji vətəndaşlıq tərifinə uyğun gəlmir; əksinə, daha çox irqi və etnik məzmun daşıyır. Bu yanaşma İraq əhalisinin müəyyən hissələrinin başqa irqi və ya etnik qruplara mənsub olduğunu konstitusion səviyyədə ön plana çıxarır. Bu isə digər qrupların da özlərini fərqli etnik və ya irqi birliklərin tərkib hissəsi kimi təqdim etmələrinə zəmin yaradır. Beləliklə, vətəndaşlıq əsasında vahid milli kimlik formalaşdırmaq əvəzinə, irqi, etnik və məzhəb mənsubiyyətləri həm ölkə daxilində, həm də ölkə xaricində əlaqələndirilən identikliklər kimi ön plana çıxır.

Konstitusiyanın 4-cü maddəsində ərəb və kürd dillərinin İraqın rəsmi dilləri olduğu, dövlət qurumlarında yalnız bu dillərdən istifadə edilə biləcəyi qeyd olunur. Kürdüstan regionunda federal qurumların hər iki dildən istifadə etməsinə icazə verilir, türkmən və assur dillərinin isə həmin icmaların yaşadığı ərazilərdə rəsmi status daşıya biləcəyi bildirilir. Bundan əlavə, istənilən bölgə və ya əyalət referendum yolu ilə öz dilini əlavə rəsmi dil kimi qəbul etmək

hüququna malikdir. Bu tənzimləmələr faktiki olaraq İraqda ərəb və kürd icmalarının iki əsas konstitutiv element kimi tanındığını göstərir.

Ərəblər arasında tarixi və sosial səbəblərdən qaynaqlanan məzhəb ayrı-seçkiliklərinin kəskinləşməsi nəticəsində siyasi, ictimai və sosial münasibətlər əsasən şiə və sünni kimlikləri üzərindən formalaşmışdır. Bu parçalanmanın əksinə olaraq, kürdlər nisbətən vahid bir siyasi və sosial qrup kimi çıxış edirlər. Kürdlərin sünni məzhəbinə mənsub olmaları isə sünni ərəblərlə avtomatik şəkildə ortaq siyasi və ideoloji zəmin formalaşdırmır.

Konstitusiyanın 7-ci maddəsində irqçilik, terrorizm, təkfir (bir şəxsi və ya qrupu kafir elan etmə) və BƏƏS Partiyası qadağan edilir. Beləliklə, dünyəvilik və millətçilik ideologiyasına əsaslanan və əsasən sünni ərəblər tərəfindən dəstəklənən BƏƏS Partiyası siyasi sistemdən tamamilə kənarlaşdırılmış olur. Bu müddəa İraqın yeni siyasi quruluşunda müəyyən sosial qrupların ideoloji təmsil imkanlarının məhdudlaşdırıldığını göstərir.

9-cu maddədə İraq Silahlı Qüvvələrinin ölkədə mövcud olan alt kimliklər arasında tarazlıq prinsipi əsasında formalaşdırılacağı iddia edilsə də, Kürd Demokrat Partiyasının (KDP) lideri Məsud Bərzaninin təxminən 75.000 nəfərlik Peşmərgə qüvvəsinin ləğv edilməməsi tələbi bu prinsip ilə açıq ziddiyyət təşkil edir və konstitusiyanın ruhuna uyğun gəlmir.

İraqda qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin formalaşmasının detallı təhlili bu çərçivədən kənarda saxlanılır. Lakin aydınlıq üçün qeyd etmək lazımdır ki, Konstitusiyanın 47-ci maddəsində qanunvericilik hakimiyyətinin Nümayəndələr Palatası və Birlik Şurasından ibarət olduğu göstərilir. 48-ci maddəyə əsasən, Nümayəndələr Palatası hər 100.000 nəfərə bir nümayəndə prinsipi ilə formalaşdırılır və parlament sistemi çərçivəsində fəaliyyət göstərir. 63-cü maddədə isə Birlik Şurasının regional və əyalət nümayəndələrindən ibarət olacağı və bölgə və əyalət büdcələrinə nəzarət səlahiyyətinə malik olacağı nəzərdə tutulur.

Bu quruluş formal baxımdan ABŞ-dakı Nümayəndələr Palatası və Senatdan ibarət iki palatalı parlament sistemini xatırlatsa da, ABŞ Senatının əsas funksiyalarının Birlik Şurasına verilmədiyi müşahidə olunur. 65-ci maddədə təsvir edilən prezident vəzifəsi klassik parlament sistemlərindəki prezident səlahiyyətlərinə oxşar xüsusiyyətlər daşıyır. 74-cü maddədə nəzərdə tutulan hökumət modeli də parlament sistemi çərçivəsində formalaşdırılmışdır.

Diqqətçəkən müddəalardan biri də 101-ci maddədə İraq Mərkəzi Bankının "müstəqil" qurum kimi təsbit edilməsidir. 2001-ci il iqtisadi böhranından sonra Türkiyədə Mərkəzi Bankın BVF proqramları çərçivəsində "müstəqil" status qazanmasını və bu müstəqilliyin faktiki olaraq milli hökumətlərdən daha çox qlobal maliyyə institutları, xüsusilə BVF ilə koordinasiyalı fəaliyyət anlamına gəldiyini xatırlasaq, bu müddəanın mahiyyəti daha aydın şəkildə ortaya çıxır.

113-cü maddə İraqın inzibati quruluşunu müəyyən edir. Buna əsasən, ölkə dörd əsas inzibati vahiddən ibarətdir: paytaxt, bölgələr, mərkəzləşdirilməmiş əyalətlər və yerli hökumətlər. 114-cü maddəyə görə, bölgələr bir və ya bir neçə əyalətdən ibarət ola bilər; başqa sözlə, bir əyalət ayrıca bir bölgə statusu da ala bilər. Həmin maddənin ikinci abzasının (a) bəndinə əsasən, bir və ya bir neçə əyalət, əyalət şurası üzvlərinin üçdə ikisi və ya əhalinin onda birinin tələbi ilə referendum yolu ilə bölgəyə qoşula bilər. Qısaca, 114-cü maddə xüsusilə Kərkük məsələsinə yönəlib.

Kərkükdəki demoqrafik struktur, əvvəlki abzaslarda qeyd olunduğu kimi, kürdlərin xeyrinə dəyişdirilib. Kərkük, alternativ neft marşrutları (Kərkük-Hayfa, Kərkük-Aqaba) yaratmaqla adambaşına düşən gəliri təxminən 5.000–7.000 ABŞ dollarına qədər artırmaq potensialına malikdir və qonşu ölkələrdəki həmvətənlərinə də iqtisadi fayda verə bilər. Bu, şəhərin regional cazibə mərkəzinə çevrilməsini mümkündür.

115-ci maddə bölgələrə qanunvericilik, icra və məhkəmə səlahiyyətləri verir, 132-ci maddə isə bölgə daxilində olmayan əyalətlərə geniş inzibati və maliyyə səlahiyyətləri tanıyır. 135-ci maddədə qeyd olunan yerli hökumətlər isə ənənəvi mənada yerli hakimiyyətlərdən fərqlidir: burada türkmən, xaldeyli, aşşur və digər azlıqların yaşadıqları bölgələrdə inzibati, mədəni və təhsil hüquqları konstitusiya ilə təmin edilir.

Neft və qaz məsələsinə gəldikdə, 109-cu maddədə onların bütün İraq xalqına məxsus olduğu qeyd olunur, lakin 110-cu maddədə Federal Hökumətin mövcud yataqlarda neft çıxarmaq və əlaqələndirmək hüququ vurğulanır. Potensial yeni yataqlar üçün konkret müddəa yoxdur, bu da bölgələr və mərkəzi olmayan əyalətlərin gələcəkdə yeni yataqların idarəçiliyini öz üzərinə götürə biləcəyini göstərir.

150-ci maddə isə 1992-ci ildən etibarən Kürdüstan bölgəsində qəbul edilmiş qanunların, müqavilələrin və məhkəmə qərarlarının konstitusiyaya zidd olmadığı təqdirdə qüvvədə olduğunu bildirir. Beləliklə, konstitusiya geriyə doğru tətbiq olunmaqla Kürd bölgəsinin muxtar idarəçiliyini 1992-ci ildən qanuniləşdirir. Maraqlıdır ki, konstitusiyada yalnız Kürdüstan adlandırılan bölgəyə istinad edilir. Bu, İraq konstitusiyasının Kürdüstanı qanuniləşdirən və yeni Yaxın Şərq xəritəsini formalaşdıran vacib hüquqi sənəd olduğunu göstərir.

"Yeni Yaxın Şərq" anlayışının dərk edilməsində Şimali İraq xüsusi, açar mövqe tutur. Bu kontekstdə Şimali İraqda formalaşdırılmış "qanunsuz zona" Yeni Yaxın Şərq modelində mövcud dövlət strukturlarının hansı mexanizmlərlə və hansı tip siyasi qurumlarla əvəz oluna biləcəyinin indikatoru kimi çıxış edir. Bu çərçivədə Yaxın Şərq məkanı genişlənmə və qloballaşma proseslərinə məruz qaldıqca, bölgədəki milli dövlətlər alt kimliklər (etnik, məzhəbi və regional identikliklər) əsasında fragmentasiyaya uğrayaraq nisbi

şəkildə zəifləyir. Qlobal güclər klassik milli dövlət institutları ilə əməkdaşlıqdan daha çox lokal, qeyri-mərkəzləşmiş və institusional baxımdan qeyri-müəyyən strukturlarla işləməyə üstünlük verirlər [Report, 2003].

İqtisadi və siyasi aspektdən Yaxın Şərqin mərkəz–periferiya münasibətləri kontekstində təhlili göstərir ki, bölgə hələ də qlobal kapitalist sistemə tam şəkildə "bazarlaşdırılmış" formada inteqrasiya olunmayıb. Bəzən "Böyük Yaxın Şərq" layihəsinin ideoloji əsaslandırılması üçün istinad edilən BMT-nin Ərəb İnsan İnkişafı Hesabatlarında da regionda alıcılıq qabiliyyətinin zəifliyi və struktur iqtisadi problemlər mütəmadi olaraq vurğulanır. Periferik mövqeyinə baxmayaraq, Yaxın Şərq dünya sisteminə tam və dərin inteqrasiya mərhələsinə keçə bilməmişdir. Daxili bazar münasibətlərinin yetərincə formalaşmaması səbəbindən neftə əsaslanan qlobal ticarət modeli region üçün hələ də əsas iqtisadi dayaqlardan biri olaraq qalır. Bu isə bölgədə kapitalist istehsal münasibətlərinin tam və sistemli şəkildə bərqərar olmadığını göstərir [Adda, 2005: s.13-27].

Neft hasilatı sahəsində, xüsusilə ABŞ və digər Qərb şirkətlərinin texnoloji və maliyyə üstünlüyü bölgədə formalaşmış siyasi-iqtisadi strukturların xarakterinə ciddi təsir göstərmişdir. Bu üstünlük nəticəsində neft gəlirləri qlobal güclərlə əməkdaşlıq edən hakim sülalələrin və siyasi elitaların zənginləşməsinə xidmət etmiş, lakin əldə olunan mənfəət cəmiyyətin müxtəlif sosial təbəqələri arasında balanslı şəkildə bölüşdürülməmişdir. Neft gəlirlərinin geniş kütlələrin sosial-iqtisadi rifahına yönəldilməməsi, eyni zamanda ABŞ-ın bölgədə həyata keçirdiyi hərbi müdaxilələr və təhlükəsizlik siyasəti Yaxın Şərqdə radikal və militant təşkilatların meydana çıxması və fəaliyyət imkanlarını genişləndirməsi üçün əlverişli mühit formalaşdırmışdır. Sosial ədalətsizlik, siyasi təmsil problemləri və iqtisadi asılılıq bu prosesləri daha da dərinləşdirmişdir. Birinci Dünya Müharibəsindən sonrakı dövrdə (1917–1920-ci illər) formalaşdırılmış geosiyasi sərhədlər və dövlət strukturları uzun müddət Qərb güclərinin regional maraqlarına uyğun şəkildə fəaliyyət göstərmişdir. Lakin müasir mərhələdə ABŞ həmin dövrdə təşəkkül tapmış və uzun illər əməkdaşlıq etdiyi bəzi hökumət və siyasi strukturları transformasiya etməyə və ya yenidən dizayn etməyə çalışır. Bunun əsas səbəbi kimi həmin strukturların regionun qlobal kapitalist sistemə daha dərin və funksional inteqrasiyasına maneə yaratdığı qənaəti göstərilə bilər [Wallerstein, 1993].

Bu geosiyasi dizaynların siyasi simulyasiyası, əsasən İraq xəritələri üzərində qurularaq İraq, İran, Suriya və təəssüf ki, Azərbaycanı da əhatə edən geniş bir coğrafiyada reallaşdırılmağa çalışılır. İraqda əhalinin etnik, məzhəbi və dini xətlər üzrə təsnif edilməsi və bu bölgülərin müəyyən ərazilərdə federativ və ya muxtar idarəetmə modelləri vasitəsilə institusionallaşdırılması, siyasi bütövlüyün zəiflədilməsi kontekstində qiymətləndirilə bilər. Bu proses müəyyən mənada boşanma ərəfəsində olan tərəflər arasında əmlakın

əvvəlcədən bölüşdürülməsini xatırladan preventiv siyasi parçalanma modeli kimi şərh olunur [Park, 2004: s.18-30]. Xüsusilə Kürd muxtar bölgəsi ABŞ, Avropa İttifaqı və İsrail üçün strateji baxımdan mühüm geosiyasi dayağa çevrilmişdir. Bu ərazi həm regional güc balansında təsir aləti, həm də enerji və təhlükəsizlik siyasətinin həyata keçirilməsi üçün platforma rolunu oynayır. Nəzəri baxımdan bu bölgə vasitəsilə kapitalist münasibətlərin genişləndirilməsi prosesi paradoksal şəkildə feodal xarakterli sosial-siyasi elementlərin siyasiləşdirilməsi və orta müddətli perspektivdə onların burjualaşdırılması mexanizmi ilə izah edilə bilər. Yaxın Şərqdə ərəb siyasi elementindən kənarda alternativ müsəlman aktor axtarışı yeni fenomen deyil və müxtəlif mərhələlərdə fərqli formalarda təzahür etmişdir. Bəzi siyasi diskurslarda Kürd bölgəsinin “Müsəlman İsraili” kimi xarakterizə olunması da məhz bu kontekstdə meydana çıxmış metaforik yanaşmadır. 2005-ci ilin fevral ayında qeyri-rəsmi formatda formalaşdırıldığı bildirilən “Yaxın Şərq Klubu” çərçivəsində İsrail, Fələstin, Misir və İordaniyanın iştirak etdiyi, İraqın isə potensial beşinci üzv kimi nəzərdə tutulduğu qeyd olunur. Enerji geosiyasəti baxımından alternativ neft marşrutlarının İsrailin Hayfa limanı və İordaniyanın Aqaba limanı vasitəsilə Aralıq və Qırmızı dəniz hövzəsinə çıxış imkanları da bu kontekstdə müzakirə edilir [Analysis, 2005].

Kürd muxtar bölgəsi üçün, potensial olaraq Kərkükü də əhatə edə biləcək xüsusi iqtisadi zonaların formalaşdırılması məsələsi müxtəlif mərhələlərdə gündəmə gətirilmişdir. Xüsusilə enerji ehtiyatları baxımından strateji əhəmiyyətə malik Kərkükün bu zonaya daxil edilməsi iqtisadi və geosiyasi nəticələr doğura biləcək amil kimi qiymətləndirilir. ABŞ-ın təşəbbüsü ilə irəli sürülmüş Yaxın Şərq Azad Ticarət Zonası (MEFTA) çərçivəsində İsrail və İordaniya “ixtisaslaşmış sənaye zonaları” modelinin tətbiqində aparıcı rol oynamışdır. Bu model əsasən ixracyönümlü istehsalın təşviqi və qlobal bazarlara inteqrasiyanın sürətləndirilməsi məqsədi daşıyır. ABŞ Dövlət Departamentinin rəsmi kommunikasiya platformalarında Türkiyənin Avropa İttifaqı ilə münasibətləri “şərti üzvlük perspektivi” kontekstində təqdim olunsa da, qeyri-rəsmi müzakirələrdə Cənub-Şərqi Anadolu və Şimali İraqda ixtisaslaşmış sənaye zonalarının yaradılması ideyası da yer almışdır. Bu təşəbbüslər regionun iqtisadi transformasiyası və sərhədyanı inteqrasiya modelləri çərçivəsində qiymətləndirilir. MEFTA mexanizmlərində iştirak üçün irəli sürülən əsas şərtlərdən biri İsrailə qarşı iqtisadi embarqo tətbiq etməmək və bu ölkə ilə stabil diplomatik-iqtisadi münasibətləri qorumaqdır. Bu tələb layihənin siyasi-iqtisadi xarakterini və regional güc balansı ilə əlaqəsini göstərir. Digər tərəfdən, Dövlət İdarəçiliyi haqqında Qanun layihəsi dövlət aparatının kiçildilməsi, inzibati nəzarət mexanizmlərinin zəiflədilməsi və iyerarxik strukturun optimallaşdırılması kimi müddəaları nəzərdə tutur. Bununla paralel olaraq, Cənub-Şərqi Anadolu ilə Şimali İraqdakı bələdiyyələr

arasında "qardaş şəhər birliyi" tipli əməkdaşlıq layihələrinin hazırlanması regional səviyyədə institusional əlaqələrin gücləndirilməsi istiqamətində addım kimi təqdim olunur [MEPI 2004].

## 4.Nəticə

Şimali İraqda formalaşmış yeni siyasi reallıq ABŞ-ın bölgəni iqtisadi, siyasi, sosial və mədəni müstəvilərdə transformasiya etmək strategiyası baxımından mühüm əhəmiyyət daşıyırdı. Lakin bir sıra mütəxəssizlər İraqın daxili strukturunun zəifləməsi və mümkün parçalanma ssenariləri təkcə bu ölkənin deyil, bütövlükdə regionun geosiyasi xəritəsinə təsir göstərə biləcək proses kimi qiymətləndirdilər. Bu səbəbdən məsələyə yalnız təhlükəsizlik və ya terrorizm prizmasından yanaşmaq kifayət etmir; daha geniş struktur və sistem təhlili tələb olunurdu. Fikrimizcə, belə olan halda Şimali İraqda tətbiq olunan model regional kontekstdə klassik milli dövlət modelinə alternativ yanaşma kimi dəyərləndirsək daha münasib olar. Buna qarşılıq olaraq, Şimali İraq kontekstində formalaşan siyasi yanaşma qəbilə, tayfa, etnik və məzhəbi identikliklərin institusionallaşdırılmasını təşviq edən model kimi xarakterizə olunmalıdır. Lakin bu fərqli yanaşmalar regional sabitlik və dövlətçilik prinsipləri baxımından ziddiyyətli perspektivlər yarada bilərdi. Bu model yalnız Şimali İraqın milli təhlükəsizlik problemi deyil, həm də daha geniş siyasi-sosial riskini atrmasını mümkün edirdi. Lakin elmi təhlildə bu məsələnin çoxşaxəli aktorlar, regional dinamika və beynəlxalq münasibətlər sistemi çərçivəsində daha kompleks şəkildə araşdırılması zəruridir. Ona görə ki, Şimali İraqdakı yeni status-kvonun region dövlətləri üçün mümkün təsirləri barədə müxtəlif ssenarilər mövcuddur. Bununla yanaşı, alternativ yanaşma kimi vətəndaşlıq əsaslı milli birlik və region xalqları arasında əməkdaşlıq ideyası göstərilə bilər. Bu da regionda milli suverenlik, vətəndaşlıq prinsipi və məzlum millətlər arasında əməkdaşlıq ideyasını gümdəmə gətirə bilərdi. Bu perspektivdən yanaşdıqda, regionda vətəndaşlıq əsaslı inklüziv modelin təşviqi sülh və sabitlik üçün alternativ konseptual çərçivə yaradacaqdır. Əks istiqamətdə isə etnik və məzhəbi parçalanmanın dərinləşməsi İraqda, o cümlədən regionda uzunmüddətli qeyri-sabitlik riskini artıraradı.

## 5.ƏDƏBİYYAT

1. Adda, J. (2005). *Ekonominin küreselleşmesi* (3. Baskı). İstanbul: İletişim Yayınları, s. 13–27.
2. Debka File Exclusive Analysis. (2005, February 8). The Middle East Club of Four Is Founded in Sharm. Retrieved from http://www.debka.com/article.php?aid=980
3. Human Rights and Protection of Minorities, Civil and Political Rights. (2004). *2004 Regular Report on Turkey's Progress Toward Accession* (s.44–48). Retrieved from www.eu.int.

**4.** Iraqi Constitution. (2005). Courtesy of the Associated Press. Retrieved from http://www.washingtonpost.com/wp-dyn/content/article/2005/10/12/AR2005101201450.html
**5.** Park, B. (2004). Iraq's Kurds and Türkiye: Challenges for US Policy. *Parameters*, US War College Edition, USA, Autumn 2004, s. 18–30.
**6.** Tansi, D. (2005, 14/02). Irak seçimlerinde ne oylandı? *Cumhuriyet Strateji*, s. 12–13.
**7.** United Nations Arab Human Development Report. (2003). Retrieved from www.undp.org.sa/Reports/AHDR%202003%20-%20English.pdf
**8.** US Department of State. (2004, May). MEPI Standing Program Announcement. Retrieved from http://mepi.state.gov/27603.htm
**9.** Wallerstein, I. (1993). *The world system: Five hundred years or five thousand*. London: Routledge.

## REFERENCES

**1.** Adda, J. (2005). *The globalization of the economy* (3rd ed., pp. 13–27). Istanbul: Iletisim Yayinlari. (in Turkish)
**2.** Debka File Exclusive Analysis. (2005, February 8). The Middle East club of four is founded in Sharm. Retrieved from http://www.debka.com/article.php?aid=980 (in English)
**3.** Human rights and protection of minorities, civil and political rights. (2004). *2004 regular report on Turkey's progress toward accession* (pp. 44–48). Retrieved from http://www.eu.int (in English)
**4.** Iraqi constitution. (2005). Courtesy of the Associated Press. Retrieved from http://www.washingtonpost.com/wp-dyn/content/article/2005/10/12/AR2005101201450.html (in English)
**5.** Park, B. (2004). Iraq's Kurds and Turkey: Challenges for US policy. *Parameters*, US War College Edition, Autumn, pp. 18–30. (in English)
**6.** Tansi, D. (2005, February 14). What was voted on in the Iraqi elections? *Cumhuriyet Strateji*, pp. 12–13. (in Turkish)
**7.** United Nations Development Programme. (2003). *Arab human development report 2003*. Retrieved from http://www.undp.org.sa/Reports/AHDR%202003%20-%20English.pdf (in English)
**8.** US Department of State. (2004, May). *MEPI standing program announcement*. Retrieved from http://mepi.state.gov/27603.htm (in English)
**9.** Wallerstein, I. (1993). *The world system: Five hundred years or five thousand*. London: Routledge. (in English)